ədalət.-2019.-24 may.S.5.



*Allahverdi Eminov*

# SƏN ŞAİRSƏN, VAQİF İSAQOĞLU!

**Vaqif İsaqoğlunun şeirlərilə elə də yaxından tanış deyiləm - niyə etiraf etməyim və bu, yaradıcı adamlar üçün təbii sayıla bilər. Çünki onlar təvazökar, səs-küyçü, çoxdanışan, "söz kəsən" deyillər. Saatlarla çay süfrəsi arxasında oturursan, sözü güclə qoparırsan. Vaqiflə məni tanış edən istedadlı jurnalist və yazıçı Rafiq Hacıyevin özü də belə şəxsiyyətlərdən biridir.**

- Müəllim, - astadan dilləndi və stola qoyulmuş çaydan armudu stəkanlara süzdü. - Vaqifi tanımamış olmazsan. Elə bu günkü "Ədalət" qəzetində şeirləri çıxıb.

Vaqif qurcalandı, pörtmüş halda Rafiq bəyin üzünə baxdı.

- Mən Allahverdi müəllimi neçə illərdir oxuyuram, - astadan deyib əlini mənə uzatdı

- Sizi yaxşı tanıyıram, ancaq şeirlərini! Bu vaxtacan diqqətlə baxmamışam.

Və bir gün "Dərdimi saralmış yarpağa yazdım" adlı yeni şeirlər kitabını avtoqrafı ilə mənə bağışladı. Qayğılar imkan vermir ki, başını qaldırasan, rahat nəfəs alasan, bir az da yüngülləşəsən. Amma imkan tapıb Vaqifin həm kitabını, həm də qəzetlərdə işıq üzü görən şeirlərini oxudum. İlk təəssüratım şairlərə daha çox məxsus olan kədərlə bağlandı. Bir bəndi iki dəfə oxudum.

**Biz bəxti seçmirik, bəxt bizi seçir,**
**İllər ömrümüzü ot kimi biçir.**
**Allaha qovuşmaq ölümdən keçir,**
**Üz tutub gedirəm qəbrimə sarı.**

Və susdum, içimdən səs gəldi: - Bu, şairin bədbinliyidimi, yoxsa şairlərin həyatı boyu daşıdığı yükdürmü? İkinci hesab elədim. Lakin bu fikrim hələ söz idi, pıçıldamışdım, şairi öz poeziyasından qavramamışdım. Oxuyur, duruxur, fikrə gedirdim, özüm də bilmirdim axtardığım nədir? Mən ki, şeir yazmıram, bəs nədəndir, şairi "tiplərə" bölürürəm lap irqlər sayağı: bu, qara, bu da ağ irqə məxsusdur. Və yenə tərəddüd edirəm: şeirdə intellektiyallaşmayamı, yoxsa emisionallığamı üstünlük verirəm? Məncə, hissiyatlıq elə poeziyanın canındadır - şairdən asılı deyil, ilahinin səsidir, gəlib şairə çatır; intellektuallıq isə şairin əqli çevikliyidir, fikrin doğuluşudur. Nə yaxşı Vaqif İsaqoğlunda hər ikisini tapdım vaxtında, yoxsa yarımçıq qoyacaqdım və bu qeydlərimi də yazmayacaqdım. Bir qədər peşimanladım, "sonumu" xəyalıma gətirdim, ötən illərimi çək-çevir elədim, ili-ilə vurdum çaxmaq daşı kimi, gördüm qığılcım alınır, siqaret də çəkmirəm oduna yandıram. Necə ki; "Qəbrimin üstünə kimlər gələcək" şeirini Vaqif nə üçün yazıb? Olmazdımı hisslərinin üstündən keçəydi?

**Qəbrimin üstünə kimlər gələcək?**
**Kimlər ağlayacaq, kimlər güləcək?**
**Kim yada salacaq mənli günləri?**
**Bunu bilməsəm də, Tanrı biləcək.**

**Qəbrimin üstünə kimlər gələcək?**
**Məni yad eləyən olmadı bəlkə.**
**Ayağım altına bir gül basdırın,**
**Mənim baxışımla solmadı bəlkə.**

**...Şəkildən boylanan gözüm yol çəkər,**
**Yenə də üstümə gələn tapılmaz.**
**Ayların, illərin tozu çökəndə,**
**Qara başdaşımı silən tapılmaz...**

Daha tabım dözmədi, risqə gəlib daha oxumadım. Bu şeiri özüm üçün yazılmış "elegiya" sandım. Vaxtilə xalam qızlarına pıçıldamışdım ki, nə yeganə bacım, nə yeganə qardaşım qalıb bu həyatda, itirmişəm onları, mən öləndə sizlər ağlayın məzarımın üstündə, amma ürəkdən göz yaşınızı səpin saralmış otlara, haçansa yaşıllaşacaq, xırdaca-xırdaca çiçəklər açacaq. Mənsiz...

Elə isə şeir nədir: ağlatmaq, yoxsa güldürmək üçündür? Şeir insan varlığının əks olunmasıdır və bir də yeni varlığın yaradılmasıdır - oxucunun ruhunu oynadır. Şeir insan vücudunun - canının - ruhunun sosiallaşması deyil, "proqramla" yazılmır ki, vərəqləri qaralayasan. O halda, vəziyyətdə yazılır - şair dözməyi bacarmır, keçmişindən son aqibətinə "uçur". Vaqif İsaqoğlunun daha bir şedevr şeiri. "Qəbrimin üstünə kimlər gələcək"yinə assosiativ davamı: "Məni tez unudun, salmayın yada":

**Küləklər aparar sinə daşımı,**
**Üstünə ikinci bir daş da qoyun.**
**Quşlar göydən enib gəlib yesinlər,**
**Bir tikə pendir də, lavaş da qoyun.**

**Məni tez unudun, salmayın yada,**
**Onsuz da bir ilə dönəcəm yada.**
**Qonağım olacaq, o haqq dünyada,**
**İri mis qazanda siz aş da qoyun.**

**...Köçüb gedəcəyəm uzaq diyara,**
**Vaqifdən səs çıxmaz ha axtar, ara.**
**Birdən ayılaram məni məzara**
**Siz yavaş endirib, yavaş da qoyun.**

Vaqif İsaqoğlunun şeirlərini birbaşa oxuyub keçmək insafsızlıq olardı. Poeziyasında insana fərdi-şəxsi yanaşma mövcuddur, şəxsiyyətinin tarixinə müəyyənləşmiş obrazını yaradır, bədii şüurun fəaliyyətini reallaşdırır və oxucunun intellektual və emosional qavrayışını nəzərdə tutmur. İnsan özünü sığortalaya bilməz, günahlar sahibidir və gizlətməməlidir, necə ki, filosof Aristotel belə əhvalı "katarsis"ə

çağırmışdır. "Mən yuya bilmərəm günahlarımı", "Yazıqsan", "Düzlərdə qalsam da düzünü dedim" və sair şeirlərində bunu hiss edirik.



**Dönüb haqq adamı olsam da yenə,**
**Özüm öz canımı alsam da yenə,**
**Qurdla qiyamətə qalsam da yenə,**
**Mən yuya bilmərəm günahlarımı.**

**Təkləndim, özümlə tək-tənha qaldım,**
**Şeytana aldandım, nə verdi, aldım.**
**Şəraba, qadına meylimi saldım,**
**Mən yuya bilmərəm günahlarımı.**

Yaxud başqa bir şeirində şair üzünü vicdansıza tutur. Vicdanını satandan nə gözləmək olar, beləsi cansız müqəvva, gümansız və imansız adam deyilmi? Əgər beləsi özünə güvənmirsə, "ölü can"dan fərqi nə olar?

**Yoxuşu qalxanda dizinə güvən,**
**Danış öz sözünü, sözünə güvən.**
**Özünə arxalan, özünə güvən,**
**Namərd kölgəsində yatma, yazıqsan!**

**Dəhşətə gələrsən özünü bilsən,**
**Bir an yaşamazsan düzünü bilsən.**
**Axı, sən insansan, heyvan deyilsən,**
**Bu qədər palçığa batma, yazıqsan.**

Şeirdə didaktik ovqat yaşansa da, bu gün çox lazımlı müraciətdir. Bəzi məmurlar harınlaşırsa, qarnını şişirdirsə, başdan ayağa namərdləşirsə heç bir faydası olmur, kimlərsə onları qoruyur, hətta əzizləyir. Vaqif İsaqoğlunun kəsərli şeirlərindən sevgi ağrısı emosional ovqatdan irəli gəlir, şair ürəyinə sakitlik səpmək istəyir, yoxsa bu ağrıya dözməkmi olar? "Yaman darıxmşam", "Darıxdım", "Gəlmişəm" şeirlərində nikbindir, həsrətin intizarı, nikbin-ovqat kimi heysiyyatda yaşayan motivlər yetərincədir və Vaqifin ilhamının təsdiqidir.

"Ən gözəl nəğmədir qadın bədəni" şeiri ona gələn ilhamın təsirindən yazıla bilməz; gərək gözəl qadın vücudunu "əlifba"nın hərfləri kimi mənimsəyəsən, yoxsa "apostrof" kimi sırasını tərk edəcəkdir.

**Günəş nəvazişlə yerə nur ələr,**
**Bizim dünyamızı işığa bələr.**
**Ruhu oxşasa da şirin nəğmələr,**
**Ən gözəl nəğmədir qadın bədəni.**

**Qəlbi təmizlənir sevən hər kəsin,**
**Daşlar da gül açar dəysə nəfəsin.**
**Məndən müğənnilər qoy inciməsin,**
**Ən gözəl nəğmədir qadın bədəni.**

**Qadınlar olmasa açılmaz sabah,**
**Sevib-sevilməkdi ən böyük savab.**
**Ən gözəl şeirdi, ən gözəl "Segah",**
**Ən gözəl nəğmədir qadın bədəni.**

Yaxud: sevgi-məhəbbətdən o yana eşqin həsrəti, nədənsə bu əlyetməz hiss şairləri və rəssamları daha tez tapır:

**Ulduzlar göylərdən bəla göndərdi,**
**İnan çəkmək olmur çəkilməz dərdi.**
**Ayrılıq od deyil, oddan betərdi,**
**Daha ayrılığa dözə bilmirəm.**

**Gəl mənim üzümü qibləyə döndər,**
**Çalıb ürəyimi bir neyə döndər.**
**Özün gəlməsən də bir salam göndər,**
**Daha ayrılığa dözə bilmirəm.**

Məncə, şairin "ayaqda" olan dərdi bəllidir. Vaqif İsaqoğlu şeirlərilə sözün əsl mənasında şairdir, həyati müşahidə ilə istedadın qovuşmasıdır, insan meyilliyinə poetik cavabıdır. Poeziyanın qorxduğu sosiallaşmanın dəfnidir. Nahaq yerə Özünü "Mən dünyaya şair kimi gəlmədim" pıçıldayır, "şair hisslərimi, duyğularımı şeirlərimlə anlatmaq üçün gəldim" etirafını nə yaxşı ucadan deyir. "Mən dünyaya şair kimi gəlmədimsə sözün nə olduğunu yaxşı bilirəm, sözün rəngini görürəm" səsini çıxardır. "Mən dünyaya şair kimi gəlmədim, şair adının yükü çox ağırdır, bu yükün altına girməyə cəsarət etmədim" təvazökarlığının arxasında gizlənir. Mən isə zövqüm müqabilində cəsarətlənib deyirəm: - Vaqif İsaqoğlu, sən şairsən!..